Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Separatçı ermənilərin Bakı məhkəməsində cinayət tarixi yazılır...

**Qarabağ separatçılarının məhkəmə prosesi yekunlaşmaq üzrədir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclasları davam edir. Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.**



**Kəndləri, şəhərləri yandırıb, dinc insanları qətlə yetiriblər**

Bu müddət ərzində açıq görünür ki, onlar heç bir təzyiq altında olmayıblar. Halbuki, onlar işğal dönəmində insanlıq əleyhinə böyük cinayətlər törədiblər. Kəndləri, şəhərləri yandırıb, dinc insanları qətlə yetiriblər. Onların öz yaxınları ilə telefon əlaqəsi saxlamasına, məktublaşmasına şərait yaradılıb. Separatçıların saxlanma şəraiti ilə bağlı yayılan görüntülər bir daha sübut etdi ki, Azərbaycan dövlət olaraq beynəlxalq hüquqdan irəli gələn prinsiplərə necə diqqətlə yanaşır. Bunu nəinki Azərbaycan, bütün dünya görür. Halbuki, separatçılar insanlıq əleyhinə cinayətlərdə, terrorçuluqda ittiham olunurlar. Separatçıların saxlanma şəraiti ilə bağlı erməni tərəfinin və onların havadarlarının yaydıqları qərəzli məlumatların heç biri indiyə qədər öz təsdiqini tapmayıb. Bunun özü Azərbaycanın beynəlxalq hüquqdan irəli gələn prinsiplərə necə diqqətlə yanaşdığını bir daha sübut edir.

**Mühakimə olunan şəxslərin adi cinayətkarlar olmadığını kim bilmir?**

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən yazıçı-publisist, Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı Əkbər Qoşalının fikrincə, Ermənistan silahlı qüvvələrinin öz havadarlarının güclü hərbi-siyasi dəstəyi ilə Qarabağı işğalda saxladığı, orada separatçı rejimin "hökm" sürdüyü qaranlıq illərdə baş vermiş dəhşətli müharibə cinayətlərini unutmamışıq: "Həmin canilərin, əliqanlı separatçı rejimin hazırda Bakıda istintaq altında saxlanılan əsas fiqurlarının məhkəmə prosesi yekunlaşmaq üzrədir. Bu prosesin getdiyi il də dərin rəmzi anlamlar daşıyır: "Konstitusiya və Suverenlik İli", Zəfərin 5 illik yubiley ili! Bəli, bu proses cinayət işinin son mərhələsi olmaqla yanaşı, Azərbaycan dövlətinin hüquqi suverenliyinin, siyasi iradəsinin və beynəlxalq hüquqa sədaqətinin də apaçıq nümayişidir. Məhz buna görə də, proses qarşı tərəfin və havadarlarının güclü informasiya hücumları, təzyiq cəhdləri və siyasi manipulyasiyaları ilə müşayiət olunur. Ancaq faktlar emosiyanı, böhtanı və siyasi sifarişi ard-arda sıradan çıxarır, onlara öz cəfənciyyatlarını davam və inkişaf etdirməyə zaman tanımır.

Hüquqi gerçəklik nə deyir? Deyir ki, ittihamlar ağırmı?-ağır, münasibət isə qanunidir. Məhkəmədə mühakimə olunan şəxslərin adi cinayətkarlar olmadığını kim bilmir? Kim bilmir ki, o yaramazlar terrorçuluqda, insanlıq əleyhinə suçda, müharibə cinayətlərində, etnik təmizləmədə, dövlətin ərazi bütövlüyünə qarşı silahlı qiyamda ittiham olunur? Bəs ittiham olunmasınlarmı? Bəs şahid ifadələri ilə, çoxsaylı təkzibolunmaz faktlarla sübuta yetirilmiş bəlli cinayətlərə görə təpədən-dırnağa, ağızdan-vicdana tamamən çirkaba bulaşanlara "çox sağ olun"mu deməliydik?!. Özü də, bir dəfə deyil, iki dəfə deyil, dəfələrlə edilmiş cinayətlərə təsadüf, tendensiya-filan deyilə bilməz; düşmənin müharibə cinayətləri onlarçün xarakterik, "qanunauyğun" olub…

Bax, bu cinayətlərin hər biri beynəlxalq hüquqda "jus cogens", yəni pozulması qadağan olunan fundamental normalar kateqoriyasına daxildir. Belə cinayətlərə görə amnistiya tətbiq edilmir, "siyasi motiv" bəhanəsi qəbul olunmur, üstəlik, "müharibə ortamı" əsaslandırma sayılmır".

Ə.Qoşalı hesab edir ki, buna baxmayaraq, Azərbaycan dövləti bu şəxslərə münasibətdə Cenevrə Konvensiyalarına, Avropa İnsan Hüquqları Konvensiyasına, BMT-nin Mülki və Siyasi Hüquqlar Paktına uyğun davranır: "Müharibə meydanında qızıl ləyaqət göstərmiş dövlətimiz onların saxlanma ortamı, tibbi təminatı, hüquqi müdafiə imkanları və ailə üzvləri ilə əlaqə hüququnu da ləyaqətlə - tam şəkildə qoruyur. Yəni bu, hüquqi baxımdan, belə deyək, "məcburi minimum" kimi dəyərləndirilməməli, Azərbaycanın şüurlu siyasi seçimi olaraq qəbul görməlidir. Məhkəmə prosesi dönəmində separatçıların fiziki zorakılığa məruz qalması, psixoloji təzyiq altında saxlanılması, qeyri-insani rəftar görməsi ilə bağlı qondarma iddialar irəli sürülsə də, bu iddiaların heç biri sübut olunmayıb. Zatən sübut oluna bilməz, çünki olmayan şeyi sübut etmə ağlı başında olan adamlar üçün absurddur. Və biz Bakıda məhkəmə qurmuşuq absurd teatrı qurmamışıq; bəlkə kimlərsə hələ də özünü "Dağlarda toy"da hiss edir, kimlərsə Ağdam Dövlət Dram Teatrının dağıdılmasında oynadığı rolu xatırlayır… amma pərdə enib və artıq gerçək sonun bilavasitə sonudur!Budur, yayımlanan videogörüntülər, hüquq-mühafizə orqanlarının açıq bilgiləri, məhkəmə prosedurunun şəffaflığı bütün qondarma iddiaları tam şəkildə ifşa edir. Otuz il boyunca qondarma rejimin əski parçası altında xumarlananlar elə başa düşürlər, yenə qondarmaçılıq eləmək olar… O "qatar" gedib, indi "Bakı - Ağdam" qatarının hərəkəti bərpa olunub və qarabağlıların kamil ifasında "Qatar" oxunduğunu hər yerdə eşitmək mümkündür: Ağdam, Xankəndi, Əsgəran, Ağdərə, Xocalı və başqa yerlərdə…

Mövzumuza davam etsək, burada hüquqi baxımdan çox vacib məqamı da vurğulamalıyıq: iddianı sübut etməyən tərəf böhtançıdır. Ermənistan tərəfi və onun havadarları bu günə qədər bir dənə də olsun hüquqi fakt, bir dənə də olsun müstəqil konstruktiv rəy, bir dənə də olsun beynəlxalq təsdiq ortaya qoya bilməyiblər. Bilmirlər, bilməyəcəklər də! Əslində, çıxış yolu etirafdan keçir - o da nə qədər tez olsa, bir o qədər yaxşıdır - özləri üçün…

Uzun sözün qısası, dünya erməniləri artıq informasiya kirliliyindən, "bulanıq suda balıq tutmaq"dan əl çəkməyi öyrənməlidir, öz təbliğat fiaskolarından dərs almalıdır. Siyasi gerçəklik nə deyir? Deyir, zəiflər qisas alar, güclülər mühakimə edər. Əgər güc haqlının əlindəsə, bu, Tanrıya da xoş gedir. Separatçıların əməlləri onların ən pis ortamda saxlanmasını şərtləndirsə də, onların Ləyaqətli Qalib Azərbaycanın paytaxtında çox humanist ortam içində saxlanılması bəzilərini rahatsız edir. Çünki bu, onların illərdir qurduğu "əzilən", "təzyiq altında olan" siyasi mifologiyalarını, ayrıca, bizim haqqımızda qondarmağa çalışdıqları "barbar" obrazını darmadağın edir. Azərbaycan bu məhkəmə ilə bir daha göstərir ki, biz intiqam almırıq, linc etmirik, qeyri-qanuni cəza mexanizmi tətbiqinə ehtiyac duymuruq. Hər kəs görür ki, bu, siyasi baxımdan güclü dövlət davranışıdır. Çünki hüquqa arxalanan dövlət beynəlxalq müstəvidə mövqeyini daha da möhkəmləndirir. Azərbaycanın seçdiyi yol təsadüfi deyil - bu yol "Nürnberq məntiqi"nin, yəni "cinayət var - cavabdehlik var" prinsipinin çağdaş tətbiqidir.

Bəlli olduğu kimi, bu məhkəmə prosesi regional miqyasdan çıxaraq beynəlxalq hüquqi presedent yaradır. İlk dəfədir ki, separatçılıq ideologiyasının daşıyıcıları, silahlı qeyri-qanuni rejimin rəhbərləri müstəqil, suveren dövlət tərəfindən tam hüquqi prosedur çərçivəsində mühakimə olunur. Əslində bu, gələcək üçün aydın ismarıcdır. O ismarıcın açması belədir: separatçılıq "öz müqəddəratını təyinetmə" adı altında gizlənə və terror "milli mübarizə" pərdəsi ilə legitimləşdirilə bilməz.

Beləliklə, bu gün müharibə canilərinin, erməni separatçılarının məhkəməsi nəyi göstərir? Bizcə, bu:

-Azərbaycanın ərazi bütövlüyünün hüquqi təsdiqidir;

-işğal dönəmində törədilən cinayətlərin cəzasız qalmayacağının sübutudur;

-dövlətin beynəlxalq hüquqa sayğısının və güvəninin gerçək göstəricisidir.

Qatşı tərəfin və onların havadarlarının yaydığı yalanlar bu məhkəmə zalında sübut divarına çırpılıb çilik-çilik olur. Bəli, Ləyaqətli Qalib Azərbaycan bu dəfə silahla yox, qanunla danışır. Ədalət və qanun danışanda, manipulyasiya susmağa, böhtan ifşa olunmağa məhkumdur".

***Vidadi ORDAHALLI***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***